# “O bizim əl çatmaz bir dünyamız idi...”

## Şəhid anası Südabə xanım: “Xəqani bizə 3 yadigar qoydu getdi...”

(əvvəli ötən sayımızda)

***Bir təsəllimiz var: “oğlum Xəqani – bu Vətən Savaşında düşmənə qarşı mərdliklə döyüşdü, onların çox saylı canlı qüvvəsini (onunla müharibə başlayan saatlardan çiyin-çiyinə döyüşüb, yaralanan hərbiçi yoldaşları belə söyləyirlər-şəhid atası əlavə edir. E.M.) darmadağın edib... Və əsil kişi tək həlak olur, üç rəngli bayrağımıza qurumaz qanı ilə əbədiləşdirir... Amma bizi gözü yaşlı qoyur, uzaq səfər yolunu seçir – cənnət qapısını açmaq üçün...” Çox çətinliklə siqareti bir-birinə calaya – calaya ağır hisslər, ağır duyğuların çatdırır. O, qürurlu şəhid atası İsa Ramazan oğlu Murtuzəliyev...***

...Hələ yeniyetmə yaşlarından enişli – yoxuşlu, bu mürəkkəb hərb yoluna qədəm basandan Xəqaniyə demişdim ki, “ay balam, yaxşı-yaxşı fikirləş, götür-qoy et, düzdü, hərb yolunu seçirsən, uğurlu olsun, amma unutma ki, Vətənimizin üzərindən qara buludlar çəkilməyib, o sərt küləklər əsməkdədir... özünü qoru balam...” – deyə İsa kişi qəmgin şəkildə əlavə etdi...

*Onun hərbiçi yoldaşları isə söyləyib ki, 27 sentyabr 2020 –ci il tarixində Müharibə başlayan gündən ən qızğın döyüşlərdə iştirak edən Xəqani Murtuzəliyevi düşmən kəşfiyyatı və snayperistləri onu anba-an izləyirlərmiş. Çünki, erməni faşistlərinə aman verməyən Zaqatalanın qorxmaz hərbi qulluqçusu, həm sərrast güclü atıcı, təcrübəli minamyotçu düşmən mövqelərini tam dəqiqliklə müəyyənləşdirən kəşfiyyatçı olub... O, əvəz olunmaz hərbi qulluqçu, etibarlı dost, ən ağır anlarda döyüşçülərimizin xilaskarıydı. Neçə-neçə uğurlu döyüş əməliyyatlarının öncülü – Xəqani İsa oğlu Murtuzəliyev*

Südabə Ana isə qısaca: “Bir Hava qızımın bir qardaşı Xəqani balamız vardı. Hava qızımızı köçürdük – Ağdaşa, Xəqani oğlumuzu evləndirdik. Qızımın 2, oğlumun isə 3 balası, 2 oğlan və 1 qız balaları vardı... Xəqaninin böyük oğlu İsa 9 –cu sinfi bitirib bu il. Amma sevimli atası görmədi, yaşamadı bu anları...Çox təəssüf... Şəhid oğlumun qızı Bəyim 7 –ci sinifi bitirib, sonuncu övladı oğlu Turan isə növbəti tədris ilində birinci sinifə gedecək... Xəqanisiz...

...Qəhrəmanlıqla hərb yolunu keçən qəhrəmanımızın ömür səhifələrini vərəqləyirəm...doğulduğu tarix:11 oktyabr 1984 –cü il Zaqatala rayonu Qımır kəndi, Murtuzəliyevlər ailəsində... Birinci Qarabağ Müharibəsində həlak olan şəhid İsgəndər Məmmədov adına Qımır kənd tam orta məktəbini bitirən Xəqani İsa oğlu Murtuzəliyev 1 il valideynlərinə təsərrüfat illərində köməklik edib... Milli Ordumuzda həqiqi hərbi xidmətini Müdafiə Nazirliyinin Pirəküşkül qəsəbəsində yerləşən “N” saylı hərbi hissədə keçirib. Nümunəvi hərbi xidmətinə görə dəfələrlə komandirlər tərəfindən Təşəkkürnamələr alıb, mükafatlandırılıb və məzuniyyətə buraxılıb... Valideynləri deyir ki, məzuniyyətdə olarkən Xəqani əsgərlik bitəndən sonra hərbi sahədə xidmətini davam etdirəcəyi barədə əzizlərini məlumatlandırır... Ancaq valideynləri Xəqaninin hərbiçi olmasına tərəddüd etmiş və hətta razı deyildilər... Lakin Xəqani inadından dönmədi...

...Şəhidin anası Südabə xanım deyir ki, Xəqani Murtuzəliyev həqiqi hərbi xidmətini cəbhə bölgəsində, Goranboy rayonunda başa vurduqdan sonra evə qayıdır... O, 1 aydan sonra imzaladığı müqavilə şərtlərinə əsasən yenidən MN –nin Gornaboy bölgəsindəki, düşmənlə sərhəddə yerləşən hərbi məkanda müddətsiz həqiqi hərbi xidmətini davam etdirir və eyni zamanda təcrübə toplayır, təlimlərdə fəal iştirak edir... Və, İkinci Vətən Müharibəsinə tam hazırlıqlı hərbiçi kimi yetişir...

***Şəhid ailəsində olarkən, söhbət zamanı öyrəndim ki, Xəqani MAXE kimi hərbi xidmətinin bir ilini başa vurandan sonra Ülviyyə adlı xanımla ailə həyatı qurub, şən, mehriban və xoşbəxt yaşayırdılar...***

***Şəhid hərbiçinin ömür yolunun növbəti səhifəsini açanda məlum olur ki, Xəqani Murtuzəliyev 7 il Goranboy rayonunda hərbi xidmət keçəndən sonra isə Müdafiə Nazirinin əmrinə əsasən Xəqani Murtuzəliyev Bakı şəhərindəki hərbi hissələri birində bölük komandiri kimi fəaliyyətini davam etdirməyə başlayır...***

Atası İsa Murtuzəıiyevin dediklərindən: “Oğlumun xidmət yeri Bakıya dəyişiləndən sonra nədənsə çox narahat və nigaran idi. Deyirdi ki, hər gün gecə yarısınadək işləyirlər... Xəqani dəyərdi ki, son günlər çox məsuliyyətli işlərlə məşğuldurlar və hərbi təlimlərin sayını artırıblar... Xəqani əsil hərbiçi kimi bizə heç nə bildirməsə də, son vaxtlar düşmənin azğınlaşmasından hiss edirdik ki, müharibə qaçılmazdır. Və eyni zamanda oğlumuz Xəqaninin bizimlə telefon danışıqlarında “əziz valideynlərim, son vaxtlar hərbidə işlərimiz daha da çoxalıb, evimizə də gec gedirik. Siz bizdən ötrü nigaran qalmayın, özünüzə baxın, işlərimiz yüngülləşsin, kəndə gələcəyəm. Sizlər üçün çox darıxmışam...” deməsi də nəyəsə işarə idi. Ancaq oğlumuz vədinə əməl etdi. 2020 –ci ilin avqust ayında, yeni Vətən Müharibsi başlamağa 1 ay qalmış kənddə, bizim yanımıza gəldi, ailəsi ilə birlikdə, nəvələrimizi də gətirmişdi. Çox-çox sevindik, darıxmışdıq, bacısı da Ağdaşdan gəlmişdi, hətta ona hədiyyə üçün əl telefonu da almışdı – Xəqani... O, kəndə gələndə hamı sevinirdi, dostlar, tanışlar, qohum-qonşular toplaşardılar. Xəqani çox humanist, qəlbi kövrək, hamı ilə dil tapa bilən, çox rəhimli insan idi... Bu dəfə gələndə isə anası demişdi: “Ay bala, daha bəsdir gəl, bizim yanımızda yaşa, bu boyda bağ-bağça, torpaqlar, genişlik var... qur-yarat. Hərbidə bu boyda can qoyursan, nədi sənin qədrinimi biləcəklər ki, canını qurban edirsən?!..” Xəqani isə mülayimcə cavab vermişdi: “Əzizim Ana, özündə görürsən ki, bir ildir ki, Bakıya dönmüşəm... Burada əmək fəaliyyətimi, təcrübəmi daha da artırıram... az qalıb xidmətimi başa vurmağa”. Elə bil hamı hiss etmişdi ki, Xəqaninin kəndə bu gəlişi son olacaq... O, isə hamı ilə zarafat edir, xoş davranır, ara bir də zarafata salıb, belə deyərdi: “O dığalarının da başını əzib, Azərbaycandan qovaq, itirək bundan sonra rahatlanarıq... Arxayınca yurdumuza dönərik...”

Şəhidin Atası İsa kişi deyir ki, Xəqani Murtuzəliyev öz işində çox məsuliyyətli idi... Uzun müddət Daxili İşlər orqanlarında çalışmış mərhum əmisini çox istəyərdi, işə ciddi yanaşmağın bir çox sirlərini, qaydalarını ondan öyrənmişdi...

Baş çavuş Rauf Ramazanov: “Xəqani hərbi qulluğa başlayanda Goranboy rayonunda bir yerdə xidmət etmişiK. Çalışardı ki, daha təcrübəli, daha etibarlı hərbiçilərdən nəsə öyrənsin, gələcəkə çətinliklərlə üzləşməsin. Çox mətn iradəli, vətənpərvər, etibarlı və dost canlı idi – Xəqani. Hərbi tapşırıqları vicdanla yerinə yetirər, hətta düşmənlə üzbə-üz qalanda geri çəkilməzdi, sıravi əsgərlərlə daha tez dil tapar, onların yaxın dostu, qardaşıydı Xəqani... Mən belə deyərdim ki, o, rütbəsiz, “general” idi... General Polad Həşimovun həlak olması onu çox sarsıtmışdı... Düşmənə qarşı nifrət, qisas hissi çox güclüydü, bizim el oğlumuzda... İkinci Vətən Savaşında Xəqaninin şəhid olması xəbərini eşidəndə sanki mən havalanmışdım.”Necə ola bilər ki, Xəqani də düşmən hədəfinə gələ bilər?” Hələ də özümdə deyiləm...”



***Onun hərbiçi yoldaşları isə söyləyib ki, 27 sentyabr 2020 –ci il tarixində Müharibə başlayan gündən ən qızğın döyüşlərdə iştirak edən Xəqani Murtuzəliyevi düşmən kəşfiyyatı və snayperistləri onu anba-an izləyirlərmiş. Çünki, erməni faşistlərinə aman verməyən Zaqatalanın qorxmaz hərbi qulluqçusu, həm sərrast güclü atıcı, təcrübəli minamyotçu düşmən mövqelərini tam dəqiqliklə müəyyənləşdirən kəşfiyyatçı olub... O, əvəz olunmaz hərbi qulluqçu, etibarlı dost, ən ağır anlarda döyüşçülərimizin xilaskarıydı. Neçə-neçə uğurlu döyüş əməliyyatlarının öncülü – Xəqani İsa oğlu Murtuzəliyev.***

...Xəqani ömrünün səhifələrini vərəqləyərkən məlum olur ki, müqavilə əsasında hərbi xidmətdə olarkən nümunəvi və qüsursuz hərbi xidmətinə görə müxtəlif vaxtlarda Ali Baş Komandandan, Müdafiə Nazirliyi tərəfindən yubiley, fərqlənmə medalları və tərifnamə, fəxri fərmanlarla, müxtəlif hədiyyələrlə mükafatlandırılıb. Şəhidin anası Südabə xanım gözlərinin yaşını axıda-axıda otaqlardan birində Xəqaninin şərəfinə yaradılmış güşədə saxlanılan 2018 –ci ildə “Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi “Qüsursuz hərbi xidmətə görə-III dərəcəli”, “Şücaətə görə” medalları ilə, fəxri fərmanlarla, hərbi mundirlərlə və digər yadigar əşyalarla tanış etdi...

“...Oğlum elə bil bu dünyaya qonaq gəlmişdi. At belində uzaq səfərə getdi. Bütün bunlar isə bizə yadigar, nişanə qaldı...” deyə şəhid anası əlavə etdi...

**Yaman bir gülüm oldu,**
**Ağlar bülbülüm oldu.**
**Ana oğul itirdi,**
**Nə böyük zülüm oldu.**



O, oğul ki, İkinci Vətən Müharibəsində Cəbrayıldan başlayan döyüş yolunu, Qubadlıdan, Zəngilandan, Hadrutdan, Su qovuşandan keçərək Füzulidə başa vurdu...

Südabə Ana yanıqlı-yanıqlı danışır: “21 oktyabr 2020 –ci il tarixində Xəqani mənə zəng vurmuşdu, qısaca hal-əhvalımızı xəbər aldı. Son sözü isə: “Ana, özündən və balalarımdan muğayat olun, məndən nigaran qalmayın...” oldu. Xəqanimizin danışığından çox həyəcan hiss etdim... Atasına heç nə demədim... Sonradan eşitdim ki, balam həmin gün, mənimlə danışandan bir-iki saat sonra qanlı döyüşdə iştirak edərək, xain düşmənin atdığı mərmilərdən və xəsarətlərdən həlak olub... beləcə oğlumuz... bizi tərk etdi...” – şəhid anası qəhərlənərək danışa bilmədi...

...Çox şükürlər olsun ki, tanrı səbr, təsəlli, dözüm versə də övladı vaxtsız itirmək necə ağır dərd, itki olduğunu təsəvvür etmək mümkün deyil... Azərbaycan Silahlı Qüvvələrinin fəxri olan Xəqani “oğlumuz bizə 3 yadigar qoyub, bütün eldən getdi”, şəhid Atası İsa kişinin son sözləri belə oldu.

Cəmi 36 il ömür sürmüş, bu ömrün əsas hissəsini hərbə bağlamış, o, məğlub olmuş düşmənə göz dağı vermiş, daima ata, anasının, doğmalarının başını uca etmiş və bütöv Azərbaycanımızın bütövlüyü, Qarabağımızın azadlığı uğrunda şəhadətə qovuşan MAXE Xəqani İsa oğlu Murtuzəliyev 22 oktyabr 2020 –ci il tarixində doğma Qımır kəndindəki qəbristanlıqda, digər şəhidlərin sırasında cənnətin qapısını açdı... İzdiham O, qorxmaz, cəsur, bütün müsbət keyfiyyətlərə malik olan hərbiçi el ***oğlumuzu son mənzilinə yola saldı...***

***İşğaldan azad edilmiş torpaqlarımıza sancılan üçrəngli bayraqlardan biri Xəqaninin qəbir daşı üzərində dalğalanır...***

***Ruhunuz şad olsun – Vətən xilaskarı – Xəqani!***

***Südabə Ana ağlama, heç vaxtı ağlama. Nəvələrini kövrəltmə...***

***İsa kişi: “Xəqani bütün ellərin balasıdır, o, ölməyib, ürəklərdə yaşayır”.***

***...Siz fəxr edin, qürur duyun ki, Xəqani qəhrəmanlığı, şücaəti ilə əbədi bir heykəl qurdu... nəsillərə nümunə olacaq heykəl... ölməz Xəqani Murtuzəliyev!***

***Tanrı ruhunu qorusun!***

**Elman Maliyev**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**